Udk 631.47,48

# GÖYGÖL MİLLİ PARKININ OT BİTKİLƏRİNİN NÖV TƏRKİBİ VƏ FİTOKÜTLƏSİ

**A.E.ƏLİYEVA**
**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Hidrometeorologiya ET İnstitutu**

*Məqalədə Göygöl Milli Parkının dağ-meşə qəhvəyi, dağ-meşə qonur torpaqlarının təbii biotoplarında (ağacaltı) ot bitkilərinin növ tərkibi öyrənilmişdir. Həmin biotoplarda təbii ot bitkilərinin kütləsi ($1m^2$) ölçülmüşdür. Müqayisəli olaraq növ tərkibinə daxil olan bitkiləri ayrı-ayrı ailələrə görə ayırmışıq.*

***Açar sözlər:*** *Biotop, torpaq, növ, fitokütlə*

Ölkəmizdə biomüxtəlifliyin qorunması məqsədilə bir çox Milli Parklar yaradılmışdır. Bunlardan biri də Kiçik Qafqazın şimal-şərq yamacında yerləşən Göygöl Milli Parkıdır. Göygöl Milli Parkı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 01 aprel 2008-ci ildə 12755 ha sahədə yaradılmışdır. Milli Parkın bioloji müxtəlifliyi olduqca zəngindir. Belə ki, bu ərazidə formalaşan meşələr növ tərkibinə, onların tutduqaları sahə və ağacların taksasiya göstəricilərinə görə müxtəlifdir. Burada çoxlu sayda ağac və kol növlərinə rast gəlinir. Ağaclara əsasən Şərq fıstığı (*Fagus orientalis*), adi göyrüş (*Fraxinus excelsior*), cökə (*Tilia caucasica*), qaraçöhrə (*Taxsus bacata*), qarmaqvari şam (*Pinus hamata*), alçaqboylu ardıc (*Juniperus depressa*), Şərq palıdı (*Quercus orientalis*), tozağacı (*Betul litvinowii*) və s.; kollardan zoğal (*Cornus mas*), zirinc (*Berberis iberica*), əzgil (*Mespilus caucasica*), gərməşov (*Evenymuseuropae*), böyürtkən (*Rubus idaeus*) və s. üstünlük təşkil edir [1].

Eyni zamanda vizual tədqiqat zamanı oda məlum oldu ki, əsas meşə əmələgətirən ağaclar fıstıq, palıd, şam və vələsdir. Digər cinslər cökə, qarağac, quşarmudu və s. ağaclığın tərkibində qarışıq halda bitirlər. Göygöl Milli Parkının ot örtüyü də rəngarəng və zəngin təbiətə malikdir. Bitki örtüyü, xüsusilə də meşələr ən zəngin üzvi aləmdir. Məlum olduğu kimi, torpaq əmələgəlmə prosesində, torpaq çürüntüsünün formalaşmasında və torpaqların eroziyadan mühafizə olunmasında ot bitkiləri çox böyük rol oynayır. Torpaqda üzvi maddənin yaranması bitki qalıqlarının parçalanması və humifikasiya hesabına baş verir.

Meşə ekosisteminin bitki örtüyünün qalıqları torpaq canlıları tərəfindən çevrilərək dağ-meşə qəhvəyi və dağ-meşə qonur torpaqların münbitliyini formalaşdırır. Bitki qalıqlarının tərkibində olan mineral, üzvi maddələr bioloji dövrana daxil olur. Beləliklə, meşə biogeosenozu öz fəaliyyətini davam etdirir.

Bizim məqsədimiz Göygöl Milli Parkında tədqiq edilən torpaqlarınağacaltı ot bitkilərinin növ tərkibini və fitokütləsini öyrənməkdir. Digər tərəfdən Göygöl Milli Parkında ekoloji təsirlərin nəticəsi və təbii fitosenozunda baş verən dəyişiklikləri öyrənməkdən ibarət olmuşdur. Bu da növ müxtəlifliyinin qorunması üçün böyük əhəmiyyət kəsb edir [3].

**Tədqiqat obyekti və metodika.** Tədqiqat Kiçik Qafqazın şimal şərqində yerləşən Göygöl Milli Parkının təbii meşə fitosenozunda aparılmışdır. Tədqiqat obyekti burada yayılan dağ-meşə qəhvəyi və dağ-meşə qonur torpaq tiplərindən seçilmiş təbii biotoplarında götürülmüşdür. Eyni zamanda tədqiqat işinin aparılmasında V.C.Hacıyevin, İ.S.Səfərovun, K.K.Əsədovun, T.O.İbrahimovun və s. alimlərin tədqiqatlarından istifadə olunmuşdur. Bitki növlərinin təyinatında məlum olan flora, konspekt və təyinedicilərdən istifadə edilmişdir [2, 4, 7]. Tədqiq olunan ərazidən toplanmış bitkilərdən herbarilər hazırlanmış və laboratoriya şəraitində təyin edilmişdir.

**Alınmış nəticələrin təhlili.** Aparılan tədqiqat zamanı ilkin olaraq 29 herbari nümunəsi hazırlandı. Ot bitkilərin yerüstü kütləsinin ölçülməsi seçilmiş biotopda $1m^2$ sahədən aparılmışdır [5]. Toplanan herbarilərə əsasən təyin edilən bitkilərin növ tərkibi aşağıdakı cədvəldə verilmişdir (cədvəl 1).

**Cədvəl 1.**
**Göygöl Milli Parkından götürülmüş ot bitkilərinin növ tərkibi**

| № | Latınca adlar | Azərbaycanca adlar | Rusca adlar |
|---|---|---|---|
| 1 | Fəsilə: *Orchidaceae* Juss<br>Cins:*Epipactis* Zinn<br>Növ:*E.palustris*(L).Crantz | Səhləbçiçəklilər<br>Mürgəg otu<br>Batdaxlı m. | Ятрышнико вые<br>Дремлик<br>Д.болотный |
| 2 | Fəsilə:*Brassicaceae* Burnett<br>Cins:*Aethionema* R.Br<br>Növ:Ae.sp | Kələmçiçəklilər<br>Pulcuqluot<br>Ae.sp | Капустные<br>Крылотычи нник<br>К.сп |
| 3 | Fəsilə: *Polygonaceae* Lindl.<br>Cins: *Rumex* L<br>Növ: R.sp | Qırxbuğumkimilər<br>Əvəlik<br>R.sp | Гречишные<br>Щавель<br>Щ.сп |
| 4 | Fəsilə: *Fabaceae* Lindl.<br>Cins: *Securigera* DC<br>Növ:*S.varia*(L) Lassen *Coronilla* varia L | Paxlalılar<br>Qılınclı ot<br>Ala q.o. | Бобовые<br>Секуригера<br>С.пестрый |

| | | | |
|---|---|---|---|
| 5 | Fəsilə: *Asteraceae* Dumort<br>Cins: *Artemisia* L<br>Növ: *A.absinthium* L | Asterçiçəklilər<br>Yovşan<br>Acı y. | Астроцветные<br>Полынь<br>П. горькая |
| 6 | Fəsilə: *Thymelaeaceae* Juss.<br>Cins: *Daphne* L<br>Növ: *D.glomerata* Lam | Canavargiləsikimilər<br>Canavargiləsi<br>Koma C | Волчниковые<br>Волчник<br>В. скученный |
| 7 | Fəsilə: *Ranunculaceae* Juss<br>Cins: *Thalictrum* L<br>Növ: *T.foetidum* L | Qaymaqçiçəklilər<br>Qaytarma<br>İyli q | Лютиковые<br>Василистник<br>В.вонючий |
| 8 | Fəsilə: *Caryophyllaceae* Juss<br>Cins: *Silene* L<br>Növ: S.sp | Qərənfilçiçəklilər<br>Quzuqulağı<br>S.sp | Гвоздичные<br>Смолевка<br>С.сп |
| 9 | Fəsilə: *Rosaceae* Juss<br>Cins: *Alchimilla* L<br>Növ: A.sp | Gülçiçəklilər<br>Şahduran<br>A.sp | Розоцветные<br>Манжетка<br>М.сп |
| 10 | Fəsilə: *Lamiaceae* Lindi<br>Cins: *Salvia* L<br>Növ: S.sp | Dalamazkimilər<br>Sürvə<br>S.sp | Яснотковые<br>Шалфей<br>Ш.сп |
| 11 | Fəsilə: *Campanulaceae* Juss<br>Cins: *Campanula* L<br>Növ: C.sp | Zəngiçiçəyikimilər<br>Zəngiçiçəyi<br>C.sp | Колокольчиковые<br>Колокольчик<br>К.сп |
| 12 | Fəsilə: *Primulaceae* Vent<br>Cins: *Primula* L<br>Növ: *P.auriculata* Lam | Novruzçiçə-yikimilər<br>Novruzçiçəyi<br>Qanadcıqlı n | Первоцветный<br>Первоцвет<br>П. ушастый |
| 13 | Fəsilə: *Labeliaceae* R.Br<br>Cins: *Lobelia* L<br>Növ: *L.erinus* L | Firəngotukimilər<br>Firəngotu<br>Adi f | Лобелиевые<br>Лобелия<br>Л.обыкновенная |
| 14 | Fəsilə: *Scrophulariaceae* Juss<br>Cins: *Veronica* L.<br>Növ: V.sp | Qurdağzıçiçəklilər<br>Bulaqotu<br>V.sp | Норичниковые<br>Вероника<br>В.сп |
| 15 | Fəsilə: *Euphorbiaceae* Juss<br>Cins: *Euphorbia* L<br>Növ: E.sp | Südləyənkimilər<br>Südləyən<br>E.sp | Молочайные<br>Молочай<br>М.сп |
| 16 | Fəsilə: *Valerianaceae* Batsch<br>Cins: *Valeriana* L<br>Növ: *V.leucophala* DC | Pişikotukimilər<br>Pişikotu<br>Külrəng pişikotu | Валериановые<br>Валериана<br>В.пепельно-серая |
| 17 | Fəsilə: *Geraniaceae* Juss<br>Cins: *Geranium* L<br>Növ: G.sp | Ətirşahçiçəklilər<br>Ətirşah<br>G.sp | Гераниевые<br>Герань<br>Г.сп |
| 18 | Fəsilə: *Boraginaceae* Juss<br>Cins: *Symphytum* L<br>Növ:S.sp | Göyzəbankimilər<br>Xəndəkotu<br>S.sp | Бурачниковые<br>Окопник<br>О.сп |
| 19 | Fəsilə: *Rosaceae* Juss<br>Cins: *Potentilla* L<br>Növ:P.sp | Gülçiçəklilər<br>Qaytarma<br>P.sp | Розоцветные<br>Лапчатка<br>Л.сп |
| 20 | Fəsilə: *Fabaceae* Lindl<br>Cins: *Onobrychis*Mill<br>Növ:O.sp | Paxlalılar<br>Xaşa<br>O.sp | Бобовые<br>Эспарцет<br>Э.сп |
| 21 | Fəsilə: *Scrophulariaceae* Juss<br>Cins: *Rhinanthus* L<br>Növ:R.sp | Qurdağzıçiçəklilər<br>Çınqıllıqotu<br>R.sp | Норичниковые<br>Погремок<br>П.сп |
| 22 | Fəsilə: *Caryophyllaceae* Juss<br>Cins: *Silene* L<br>Növ: *S.conica* L | Qərənfilçiçəklilər<br>Quzuqulağı<br>Sivri q | Гвоздичные<br>Смолевка<br>С.кони-ческая |
| 23 | Fəsilə: *Lamiaceae* Lindl<br>Cins: *Nepeta* L<br>Növ: N.sp | Dalamazkimilər<br>Pişiknanəsi<br>N.sp | Яснотковые<br>Котовник<br>К.сп |
| 24 | Fəsilə: *Rosaceae* Juss<br>Cins: *Fragaria* L<br>Növ: *F.viridis* (Duch)-weston | Gülçiçəklilər<br>Çiyələk<br>Göy ç | Розоцветные<br>Земляника<br>З.зеленая |
| 25 | Fəsilə:*Convallariaceae* Horan<br>Cins: *Polygonatum* Hill<br>Növ :*P.glaberrimun*C.Koch | İnciçiçəyikimilər<br>Güyənə<br>Hamar g | Ландышевые<br>Купена<br>Гладкая к. |
| 26 | Fəsilə: *Lillaceae* Juss<br>Cins: *Lilium* L<br>Növ: *L.szovitsianum* Fitch | Zanbaqçiçəklilər<br>Zanbaq<br>Şoviç z. | Лилейные<br>Лилия<br>Л.шовица |
| 27 | Fəsilə:*Dryopteridaceae*R C.Ching<br>Cins: *Dryopteris* Adans-<br>Növ: *D.filix*-mas(L) Schott | Ayıdöşəyilər<br>Ayıdöşəyi<br>Erkək a. | Папоротниковый<br>Щитовник<br>Мужской щ. |
| 28 | Fəsilə: *Sambuacaceae* Batsch ex.Borkh<br>Cins: *Sambucus* L<br>Növ: *S.ebulus* L | Kəndalaşkimilər<br>Gəndəlaş<br>Otvari g. | Бузиновые<br>Бузина<br>Б.травянистая |
| 29 | Fəsilə: *Fabaceae* Lindl<br>Cins: *Lathyrus* L<br>Növ: *L.miniatus* Bieb.ex Stev | Paxlalılar<br>Gülülcə<br>Kiçik g. | Бобовые<br>Чина<br>Ч.киноварная |

Təbii fitosenoz herbarisinin növ tərkibinin dəqiqləşdirilməsi göstərdi ki, material 29 növdən ibarətdir, onları da öz növbəsində: müxtəlif ot bitkilərinə daxil olan, paxlalılar, mürəkkəbçiçəklilər, səhləbçiçəklilər və s. təşkil edir.

Eyni zamanda Milli Parkda olan dağ-meşə qəhvəyi və dağ-meşə qonur torpaqlarında ot bitkilərinin yerüstü fitokütlə ehtiyatı təyin edilmişdir. Əvvəlcə toplanmış bitki kütləsinin nəm halda çəkisi ölçülmüş, daha sonra isə laboratoriya şəraitində qurudularaq, bitkilərin quru çəkisi müəyyən edilmişdir. Alınan nəticələr aşağıdakı şəkildə göstərilmişdir.




**Şəkil.** Dağ-meşə qəhvəyi və dağ-meşə qonur torpaqlarının ot bitkilərinin yerüstü fitokütləsi.

Şəkildən də göründüyü kimi, 1915m hündürlükdə zəif inkişaf etmiş ot sahəsinin nəm çəkisi 1300 qr/m$^2$olduğu halda, qurudulduqdan sonra 250 qr/m$^2$, 1836 m hündürlükdə orta inkişaf etmiş ot sahəsində nəm çəki 1955 qr/m$^2$, qurudulduqdan sonra 370 qr/m$^2$, 1602 m hündürlükdə yaxşı inkişaf etmiş sahədə nəm halda çəki 2610 qr/m$^2$olduğu halda, qurudulduqdan sonra 495 qr/m$^2$olduğu müəyyənləşdirilmişdir.

Zəif inkişaf etmiş ot sahəsinin GPS koordinant nöqtəsi (166) 38T 0611373şm 4470723şərq, orta inkişaf etmiş ot sahəsinin GPS koordinant nöqtəsi (167) 38T 0611404şm 4471731şərq, yaxşı inkişaf etmiş ot sahəsinin GPS koordinant nöqtəsi isə (161) 38T 0612681şm 4474997şərq uzunluğunda olduğu tədqiqat zamanı müəyyən edildi. Əldə edilən məlumatlara görə tədqiq edilən torpaqların nəm halda orta göstərici 1955 qr/m$^2$, quru halda isə 371 qr/m$^2$ olmuşdur.

**Nəticə.** **1.**Tədqiqatlar göstərdi ki, təbii biotoplarda ot bitkiləri 29 cins və 29 növə aiddir. 2.Yerüstü kütlənin miqdarı tədqiq edilən dağ-meşə qəhvəyi və dağ-meşə qonur torpaqlarda müqayisəli olaraq nəm halda çəki 1300-2610 qr/m$^2$ olduğu halda, quru çəki 250-495 qr/m$^2$ arasında dəyişilir.

## ӘDӘBİYYAT

1.Əsədov K.S., İbrahimov T.O., Azərbaycanın Milli Parkları 2015, 336 s. 2. Əsgərov A.M. Azərbaycan florasının konspekti (əlavələr və dəyişikliklərlə, 1961-2009). Bakı, Elm2011, 204 s. 3. Məmmədov. Ekologiya, ətraf mühit və insan. "Elm" 2006.608 s Q.Ş.,Xəlilov M.Y., 4. Çolak A.H., Sorger F. Türkiye çiçekleri. Genişletilmiş ikinci baskı.2004 Ankara: Lazer Ofset Matbaa Tesisleri San. Ve tic. Ltd.Şti. 600 s. 5. БыстрицкаяТ.Л.,Осычнюк В.В. Почвы и первичная биологическая продуктивность степей приазовья. Москва 1975 «Наука» 109 с. 6.Гаджиев В.Д. Динамика и производительность растительных формаций высокогорий Большого Кавказа. Баку 1974, «Элм» 102с. 7.Гроссгейм А.А. Растительные ресурсы Кавказа 1946 Баку: Изд. Азерб. ССР. 671 с. 8.Сафаров. И.С. Важнейшие древесные третичные реликты Азербайджана. Изд. АН. Азерб. ССР, Баку, 1962, 310 с.


### Видовой состав и фитомасса травянистой растительности Гейгельского Национального Парка


**А.Е.Алиева**



В статье приводятся результаты исследований в горно -лесных коричневых и горно -лесных бурых почвах. На естественных биотопах были определены 29 видный травянистой растительности, также надземная фитомасса изучаемых биотопов.



***Ключевые слова:*** *биота почва, вид, фитомасса*


### Species composition and phytomass of grass plants in the Goygol National Park


**A.E.Aliyeva**



This article presents the results of the research in mountain-forest brown and mountain-forest soils. On natural biota 29 species of herbaceous vegetation have been determined and the aboveground phytomass of the biotopes has been also determined.



***Key words:*** *biota, of the soil, species, phytomass*



aysel.aliyeva3040@bk.ru